# Türkiyənin texnologiya və innovasiya festivalı “TEKNOFEST 2025”




**Türkiyənin ən böyük aviasiya, kosmos və texnologiya festivalı "TEKNOFEST" texnologiya həvəskarlarını sentiyabr ayında yenidən İstanbulda bir araya gətirməyə hazırlaşır. Sənaye və Texnologiya Nazirliyi və Türkiyə Texnologiya Komandası Vəqfi (T3 Vəqfi) rəhbərliyi ilə təşkil edilən "TEKNOFEST İstanbul" hər il olduğu kimi, bu il də nəfəs kəsən hava şouları, innovativ texnologiya yarışmaları, elm sərgiləri və interaktiv seminarlarla dolu bir proqram təqdim edəcək.**

Festival gənc ixtiraçılara raket yarışlarından və pilotsuz uçuş aparatlarından tutmuş süni intellekt layihələrinə və uçan avtomobil simulyasiyalarına kimi onlarla kateqoriyada öz istedadlarını nümayiş etdirmək imkanı təqdim edir. Ziyarətçilər Solo Türk və Türk Ulduzlarının valehedici möhtəşəm hava şouları ilə səmada unudulmaz anlar yaşayacaq, texnologiya sərgilərində isə Türkiyənin milli texnologiya təşəbbüsünə şahidlik edəcəklər.

Qeyd edək ki, 12-ci dəfə keçiriləcək festival sentyabr ayının 17-21 aralığında İstanbul Atatürk Hava Limanında baş tutacaq. Beləliklə dünyanın ən böyük aviasiya və texnologiya festivalı olan "TEKNOFEST" gənclərin xəyallarını reallığa çevirməyə davam edir. İbtidai məktəbdən magistr səviyyəsinə qədər hər yaşdan iştirakçılara müraciət edən müsabiqə kateqoriyaları ilə diqqət çəkən festivalda layihələr 50-dən çox əsas kateqoriya və 100-dən çox alt kateqoriyada yarışacaq. İlkin seçim turundan keçən komandalar, milyonlarla lirə maliyyə dəstəyi və mükafatlarla layihələrini inkişaf etdirmək imkanı qazanacaqlar.

"TEKNOFEST" İstanbul təkcə yarışlarla deyil, həm də planetarium, virtual reallıq tuneli, elmi şoular və "Deneyap" seminarları kimi tədbirlərlə hər yaşdan ziyarətçilərə unikal təcrübə təqdim edəcək. Türkiyənin texnologiya liderlərini yetişdirən bu festival, həm də sahibkarlıq zirvələri və texnologiya şirkətlərinin sərgiləri ilə innovasiyaların ürəyi olacaq. "TEKNOFEST 2025" İstanbul 45 milyon TL mükafat və 75 milyon TL-dən çox maddi dəstəklə gənc ixtiraçıları daha da ruhlandıracaq.

Hər il yenilənən yarışma kateqoriyaları ilə seçilən "TEKNOFEST" İstanbul ilkin seçim mərhələsindən keçən və 85 milyon TL-dən çox maliyyə dəstəyi alan komandaları nümayiş etdirəcək. Qalib komandalar ümumilikdə 65 milyon TL-dən çox mükafat alacaqlar. Bundan əlavə, rəqiblərə təklif olunan geniş maddi dəstək onlara öz layihələrini növbəti səviyyəyə çıxarmağa imkan verəcək, eyni zamanda dünyanın hər yerindən olan rəqiblər texnologiyanın inkişafı istiqamətində mühüm addımlar ataraq bilik və təcrübələrini bölüşəcəklər. Gənc ixtiraçılar Raket Yarışması, Pilotsuz Uçuş Aparatları, Sualtı Raket Yarışması və Beynəlxalq Uşaq Elm Yarışması kimi yeni kateqoriyalar vasitəsilə 75 milyon TL-dən çox maddi dəstək alacaqlar.





Festivalın əsas məqsədi "Milli Texnologiya Hərəkatı"nı təşviq etmək, gəncləri texnologiya istehsalına yönəltmək və yerli-milli texnoloji məhsulların tanınmasını artırmaqdır. Festival, həmçinin yerli istedadların dəstəklənməsi, texnoloji layihələrin investisiya ilə birləşdirilməsi, Türkiyənin texnologiya sahəsində beynəlxalq imicinin gücləndirilməsi kimi hədəflərə də xidmət edir.

Bu il İstanbulda keçiriləcək "TEKNOFEST 2025"ə 50-dən çox ölkədən komandaların qatılacağı gözlənilir. Festival türk dünyasında texnoloji əməkdaşlıq üçün mühüm körpü rolunu oynayır.

Onu da qeyd edək ki, "TEKNOFEST" texnologiya, elm və milli ruhun bir araya gəldiyi nadir tədbirlərdən biridir. Bu ilin may ayında Şimali Kipr Türk Respublikasında, sentyabr ayında isə İstanbulda keçiriləcək. "TEKNOFEST" in Şimali Kiprdəki tədbirində 225.000 ziyarətçi iştirak edib. 2018-ci ildə fəaliyyətə başladığı gündən bu günə "TEKNOFEST"i ümumilikdə 10.688.000 insan ziyarət edib.

Bu festival həm gəncləri texnologiyaya yönəltmək, həm də Türkiyənin texnoloji potensialını bütün dünyaya göstərmək üçün strateji bir platforma olaraq qalır. Festivalın İstanbulda keçirilməsi isə həm texnologiya, həm elm, həm də milli birlik adına mühüm bir hadisə hesab edilir. Bu baxımdan "TEKNOFEST" sadəcə bir festival deyil, Türkiyənin milli texnologiya vizyonunu cəmiyyətə çatdıran böyük bir təşəbbüsdür.

**E.ASLANOVA.**
**"Respublika" qəzetinin Türkiyə üzrə müxbiri.**

Respublika .- 2025.- 29 iyul (№155).- S.11.